# Tarixdə yaşayan ad



Azərbaycan xalqı tarix boyu öz mərd oğulları ilə seçilib, Vətən uğrunda canından keçən igid oğullar yetişdirib. Böyük Vətən Müharibəsi illərində də minlərlə azərbaycanlı gənc faşizmə qarşı mübarizədə misilsiz şücaət göstərib. Minlərlə azərbaycanlı cəbhəyə yollanıb, yüzlərlə döyüşçü Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.

Sovet İttifaqı Qəhrəmanları yalnız bir dövrün insanları deyil, həm də gələcək nəsillər üçün vətənpərvərlik nümunəsidir. Onların həyatı göstərir ki, Vətən uğrunda xidmət, cəsarət və fədakarlıq xalqın yaddaşında əbədi yaşayır.

Belə qəhrəmanlardan biri də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş Salahəddin Kazımovdur.

Səlahəddin Kazımov 1920-ci ildə Azərbaycanın Zaqatala şəhərində anadan olub. Orta məktəbi bitirdikdən sonra Bakıda Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olur. 1941-ci ildə institutu bitirən Səlahəddinə peşəsi üzrə işləmək nəsib olmur. Müharibə başlayanda Səlahəddin Qızıl Ordu sıralarına çağırılır və iyunun 26-da Tiflis Dağ-Artilleriya Məktəbi nəznində kiçik leytenantlar kurslarına göndərilir.

Böyük Vətən müharibəsində cəbhəyə yollanaraq Sovet ordusunun sıralarında faşist işğalçılarına qarşı döyüşlərdə iştirak edir. O, döyüş meydanında göstərdiyi mərdlik, qorxmazlıq və vətənpərvərlik hissi ilə seçilir.

1941-ci ilin dekabrında kiçik leytenant Səlahəddin Kazımov Orta Asiya Hərbi Dairəsinə, Semipalatinsk şəhərində yeni təşkil olunan 8-ci atıcı diviziyaya göndərilir. Burada gənc topçu komandir diviziyanın 62-ci top alayının atəş taqımının başçısı vəzifəsinə təyin olunur.

Diviziya bölmələrinin təşkili 1942-ci ilin martında sona çatır. Döyüş təlimi zamanı kiçik leytenant Kazımov özünü şəxsi heyəti bacarıqla idarə edən savadlı komandir kimi göstərir. 1942-ci ilin martında Kazımov Döyüşən Orduya top batareyasının komandiri vəzifəsinə göndərilir. Diviziya Bryansk cəbhəsinin 3-cü Ordusuna daxil edilir və Oryol şəhərinin şərqində uzun müddət ağır müdafiə döyüşləri aparır. Bu döyüşlərdə topçu Kazımov özünün ilk döyüş təcrübəsini qazanır və alayda ən yaxşı mütəxəssislərdən biri olur. 1942-ci ilin avqustunda ona "eytenant" hərbi rütbəsi verilir. 1943-cü ilin əvvəlində 8-ci atıcı diviziya Bryansk cəbhəsi 13-cü Ordunun tərkibində Voronej-Kastorna hücum əməliyyatında iştirak edir və Oryol vilayətinin Maloarxangelsk-Rojdestvenskoye xəttinə çıxır.

Diviziyanın alayları bu məntəqələri 1943-cü ilin yayında Kursk savaşı başlayanadək qoruyur. Bu savaşın gedişində 8-ci atıcı diviziya Mərkəzi cəbhənin 13-cü Ordusunun tərkibində vuruşurdu. Kursk qövsündə leytenant Kazımovun batareyasının topçuları birincilər sırasında iştirak edir. Batareya 1943-cü il iyulun 5-də sovet qoşunlarının almanlara endirilən əks-top həmləsində iştirak edir. Sovet topçularının fəaliyyəti düşmənə qəfil zərbə vurmağa imkan vermir. Lakin alman komandanlığı hücum etmək qərarını dəyişmir və səhər saat 8-də düşmən topçuları hücuma hazırlıq atəşinə başlayır. Sovet topçularının mövqeləri havadan da güclü zərbələrə məruz qalır. Vermaxtın hücum edən tank və motorlaşdırılmış birləşmələrinə qarşı Qızıl Ordunun ağır müdafiə döyüşü başlayır. İyulun 5-də Maloarxangelsk rayonunun Zelenaya Roşa kəndi yaxınlığında leytenant Kazımovun batareyası düşmən hücumunun ən birinci zərbəsinə sinə gərir. Havadan zərbələrə məruz qalmalarına baxmayaraq, batareya topların heyətləri düşmən piyadalarına aramsız atəş açırlar. Batareya başçısının müşahidə məntəqəsi havadan vurulan bomba zərbələri ilə məhv edilir. Düşmən zərbələrinə tab gətirməyən, batareyanı qoruyan piyada bölmələri geri çəkilir. Döyüşün bu ağır anında Səlahəddin Kazımov soyuqqanlılıqla və bacarıqla batareyaya rəhbərlik edirdi. Onun təmkinliyi top heyətlərinin döyüşçülərinə təsir göstərir. Cəhənnəm atəşinə yaxınlaşan düşmən piyadalarına baxmayaraq, döyüşçülər dəyanətlə vuruşurdular. Həmin gün leytenant Kazımovun top batareyası dörd düşmən hücumunu dəf edir. Döyüş meydanında düşmənin 60-dək əsgər və zabitinin cəsədi qalır. Kursk savaşında göstərdiyi şücaətə görə leytenant Səlahəddin Kazımov Qırmızı Bayraq ordeni ilə təltif edilir.

Müdafiə döyüşləri sona çatandan sonra Mərkəzi cəbhənin qoşunları Oryol hücum əməliyyatı çərçivəsində irəliyə atılır. 1943-cü ilin payızını 8-ci atıcı diviziya hücum döyüşlərində keçirir. Su manеələrini bir-bir keçib diviziyanın alayları qərbə doğru hərəkət edirdi. 1943-cü ilin sentyabrında Səlahəddin Kazımova "baş leytenant" rütbəsi verilir. Hücum döyüşlərində baş leytenant Kazımovun batareyası düşmən atəşi altında Desna, Seym, Dnepr, Pripyat çaylarını keçməli olur. Başçısının yüksək təşkilatçılıq qabiliyyəti və bacarıqlı rəhbərliyinə görə hər döyüşdə batareya nəinki itki vermir, üstəlik, hücum edən piyadaları atəşlə dəstəkləyirdi. Belə ki 1943-cü il sentyabrın 22-də 8-ci atıcı diviziyanın ön hissələri Dnepr çayını keçib onun sağ sahilində, Belarusun Qomel vilayəti Braqinsk rayonu Verxniye Jarı kəndi yaxınlığında körpübaşını ələ keçirir. Baş leytenant Kazımovun topçuları sağ sahilə keçərək dərhal döyüşə qatılırlar. Almanlar nəyin bahasına olursa-olsun, körpübaşında möhkəmlənmiş və inadlı müqavimət göstərən sovet bölmələrini vurub çaya atmağa çalışırdılar. Atəş mövqelərini tez-tez dəyişərək batareyanın atəşini bacarıqla idarə edən Səlahəddin Kazımov hər dəfə düşmənə güclü top zərbələri endirirdi. Dneprin sağ sahilində körpübaşının saxlanılması və genişləndirilməsi uğrunda 12 günlük döyüşlərdə batareyanın topçuları başda komandir olmaqla fövqəladə cəsarət nümayiş etdirir.

Cəbhənin ən ağır və təhlükəli anlarında belə Səlahəddin öz döyüş yoldaşlarına nümunə olub, tapşırıqları böyük məsuliyyətlə yerinə yetirib. Onun göstərdiyi şücaət təkcə hərbi rəhbərlik tərəfindən deyil, eyni zamanda döyüş yoldaşları tərəfindən də yüksək qiymətləndirilib. Kazımovun qəhrəmanlığı xüsusi ilə düşmən mövqelərinə qarşı həyata keçirilən əməliyyatlar zamanı özünü göstərib. O, çətin döyüş şəraitində mühüm strateji tapşırıqların həyata keçirilməsində fəal iştirak edib, böyük fədakarlıq nümayiş etdirib. Onun döyüşlərdə göstərdiyi qəhrəmanlıqlar rəhbərlik tərəfindən yüksək qiymətləndirilərək Sovet İttifaqı Qəhrəmanı adına layiq görülür.

1944-cü ilin yanvarında 8-ci atıcı diviziya 1-ci Ukrayna cəbhəsinin 60-cı Ordusunun tərkibinə daxil olur. 1-ci Ukrayna cəbhəsinin əmri ilə Səlahəddin Kazımova "kapitan" rütbəsi verilir. Ordunun digər birləşmələri ilə 8-ci atıcı diviziya bir sıra uğurlu əməliyyatlar nəticəsində düşməndən yüzlərlə yaşayış məntəqəsini azad edir və aprel-də Karpat dağlarının ətəklərinə çatır. 1944-cü ilin yayında hərbi hissələr Lvov şəhərinin azad edilməsində iştirak edir. Bu hücum döyüşlərində topçu komandir Səlahəddin Kazımovun döyüş bacarığı artır və komandanlıq onu daha böyük bölməyə başçı təyin etmək qərarına gəlir. 1944-cü ilin noyabrında kapitan Kazımov 60-cı Ordu tərkibində vuruşan 9-cu kazak piyada diviziyasının 256-cı top alayında divizion başçısı təyin olunur. Bu Qızıl Orduda yeganə kazak piyada birləşməsi idi. Bu dövrdə diviziya Polşa ərazisində Krakov istiqamətində vuruşurdu. 1945-ci ilin yanvarında diviziya 5-ci Qvardiya Ordusunun tərkibinə verilərək Sandomir-Sileziya əməliyyatlarında iştirak edir. Hücum döyüşlərində kapitan Kazımovun top divizionu plastunların hücum edən bölmələrini dəstəkləyirdi. Diviziya almanların 304-cü piyada diviziyasını tamamilə məhv edir, 359-cu və 344-cü piyada diviziyaları isə böyük itkilər verir. 1945-ci il yanvarın 29-da kazaklar Osvensim ölüm həbs düşərgəsinin dustaqlarını azad edir.

Plastunların top heyəti topu yeni mövqeyə çıxarır. Fevralın əvvəllərindən diviziya döyüş fəaliyyətini Almaniya ərazisində aparır. 1945-ci il aprelin 21-də Troppau şəhəri (hazırda Polşanın Opava şəhəri) uğrunda döyüşlərdə kapitan Kazımovun top divizionu güclü atəşlə şəhər yaxınlığında olan düşmənin dayaq məntəqəsinin qarnizonunu darmadağın edir. Bu zaman düşmənin bir bölüyünədək əsgər və zabitləri məhv edilir. Nəticədə, kazaklar düşmənin müdafiə mövqelərini cüzi itkilərlə ələ keçirir və şəhərə daxil olaraq küçə döyüşlərinə başlayırlar. Aprelin sonunda 9-cu kazak piyada atıcı diviziyası Çexoslovakiyaya daxil olur və bir sıra yaşayış məntəqələrinin azad edilməsində iştirak edir. Belə ki 1945-ci il aprelin 25-də 380.0 yüksəkliyi və Boqunovis kəndi uğrunda döyüşdə Səlahəddin Kazımov hücum edənləri dəstəkləyən divizionun 7-ci batareyasına şəxsən rəhbərlik edirdi. Bu döyüşdə aldığı yaraya baxmayaraq, Səlahəddin yüksəklik alınanadək döyüş meydanını tərk etmir. Aprelin 29-da kazaklar Skrjikov kəndinə hücum edirlər. Kəndin müdafiəsində almanlar bizim piyadaların irəliləməsinə maneçilik törədən iki özüyeriyən topdan istifadə edir. Kapitan Kazımovun topçuları sərrast atəşlə hər iki topu məhv edib yaşayış məntəqəsinin ələ keçirilməsini təmin edirlər. Bu döyüşlərdə diviziona bacarıqla rəhbərlik etməsinə və şəxsi şücaətinə görə kapitan Səlahəddin İsa oğlu Kazımov Aleksandr Nevski ordeni ilə təltif edilir.

Kapitan Kazımov və diviziyanın bütün şəxsi heyəti üçün müharibə Praqa yaxınlığında sona çatır. Müharibədən sonra Səlahəddin Kazımov Zaqafqaziya Hərbi Dairəsinin top hissələrində xidmətini davam etdirir.

1948-ci ildə ona "mayor" rütbəsi verilir. 1951-ci ildə mayor Kazımov Leninqradda Ali Zabit Top məktəbini bitirir. Və 1952-ci ildə ona "podpolkovnik" rütbəsi verilir. 1956-cı ilədək podpolkovnik Kazımov Sovet ordusunun atıcı birləşmələrində top alaylarına rəhbərlik edir. 1956-cı ildə Səlahəddin Kazımov uzun və qüsursuz xidmətinə görə Qırmızı Ulduz ordeni ilə təltif olunur və DİN sisteminə keçirilir.

Sovet İttifaqı Qəhrəmanı Səlahəddin Kazımov həmçinin "Almaniya üzərində qələbəyə görə" medalı və SSRİ-nin bir sıra əmək və xidməti nişanları ilə təltif olunub. Bu xidmətlər onun Vətən qarşısında göstərdiyi xidmətlərin parlaq sübutudur.

Həyatının son illərində "milis general-mayoru" rütbəsində Azərbaycan Daxili İşlər Nazirinin müavini vəzifəsini icra edib. Qəhrəman döyüşçü və dövlət xadimi 2 iyul 1978-ci ildə 57 yaşında vəfat edib. Onun xatirəsi xalq tərəfindən daim ehtiramla yad edilib və Bakıda Fəxri Xiyabanda dəfn olunub.

***Gülşəndə MAMEDOVA***
***Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı elmi-işçisi***